Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 287 — QƏRAR — Bakı şəhəri, 26 avqust 2023-cü il

# "Binalar üçün minimum enerji effektivliyi Normaları"nın təsdiq edilməsi haqqında

"Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 avqust tarixli 1433 nömrəli Fərmanının 1.1.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Binalar üçün minimum enerji effektivliyi Normaları" təsdiq edilsin (əlavə olunur).

2.Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə razılaşdırmaqla on səkkiz ay müddətində binalarda enerji effektivliyini təmin etmək məqsədilə qüvvədə olan tikinti norma və qaydalarının təkmilləşdirilməsini təmin etsin.

3.Azərbaycan Respublikasının Energetika Nazirliyi Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırmaqla bu Qərarın 2-ci hissəsi ilə təkmilləşdirilmiş tikinti norma və qaydaları əsasında "Binalarda enerji sərfinin hesablanması metodologiyası"nı altı ay müddətində hazırlayıb təsdiq etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

Azərbaycan. - 2023.- 27 avqust.- S.8.